№133 / DEKABR 2024

# WORLD OF AZERBAIJAN

## AZƏRBAYCAN DÜNYASI




*Mərdlər diyarı*

# Naxçıvan




# MUXTARİYYƏT İLLƏRİNDƏ MƏHKƏMƏ HÜQUQ SİSTEMİ

Naxçıvanın 100 illik muxtariyyəti dövründə Muxtar Respublikanın məhkəmə hüquq sistemi uzun tarixi inkişaf yolu keçmiş, bu tarix Naxçıvan Muxtar Respublikasının, bütövlükdə Azərbaycanın tarixi ilə sıx bağlı olub, ölkənin və muxtar respublikanın müxtəlif zaman kəsiyində yaşadığı dövrü özündə əks etdirmişdir.

Məhkəmə orqanları sisteminin yaradılması prosesinə Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanılsa da demokratik respublikanın ömrünün qısa olması bu prosesin başa çatdırılmasına imkan verməmişdir. Lakin, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra Azərbaycanda kommunist ideologiyasının tələblərinə cavab verən yeni məhkəmə orqanlarının təşkilinə başlanılmışdı.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1922-ci il 09 dekabr tarixində keçirilən 2-ci sessiyasında "Azərbaycan SSR Məhkəmə quruluşu haqqında" ilk Əsasnamənin qəbul edilməsi və qüvvəyə minməsi ilə əlaqədar 1 mart 1923-cü il tarixdən bütün inqilabi tribunallar, xalq hakimləri Şurası, mühüm cinayət işləri üzrə xalq məhkəmələri və respublika Xalq Ədliyyə Komissarlığı yanında ali məhkəmə nəzarəti şöbəsi ləğv edilərək onların yerində Azərbaycan SSR Yuxarı Məhkəməsi, Bakı və Gəncə dairə (mahal) xalq məhkəmələri yaradılmışdı. Qeyd edək ki, Azərbaycan SSR Yuxarı Məhkəməsi Azərbaycan SSR-in bütün ərazisində məhkəmə fəaliyyətinə nəzarəti vahid mərkəzdən həyata keçirən yuxarı məhkəmə orqanı kimi təşkil olunmuşdu. Naxçıvan MSSR-də isə mahal məhkəmələri 1 oktyabr 1923-cü ildə yaradılmışdı.

Məhkəmə islahatlarının davamı olaraq artıq muxtar respublika statusuna malik olan Naxçıvanda ali nəzarət funksiyalarına malik məhkəmə sistemini formalaşdırmaq məqsədilə 11 oktyabr 1924-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin və Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin birgə qərarı ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan SSR Yuxarı Məhkəməsinin bölməsi yaradıldı. "Azərbaycan SSR Məhkəmə quruluşu haqqında" Əsasnaməyə əsasən bu bölmə qəzalarda baxılmış işlərə münasibətdə Azərbaycan SSR Yuxarı Məhkəməsi funksiyalarını həyata keçirmək səlahiyyətinə malik idi.

29 oktyabr 1924-cü ildə "SSRİ müttəfiq respublikalarının məhkəmə quruluşunun əsasları haqqında" qanun qəbul edildikdən sonra buna uyğun olaraq Azərbaycan SSR MİK özünün 1925-ci il 03 yanvar tarixli qanunu ilə Azərbaycan SSR Yuxarı Məhkəməsini Azərbaycan SSR Ali Məhkəməsinə çevirdi və buna müvafiq olaraq Naxçıvan MSSR-də fəaliyyət göstərən bölmə də artıq Ali Məhkəmənin Naxçıvan MSSR-də bölməsi adlandırıldı.

Ali Məhkəmənin Naxçıvan MSSR-də fəaliyyət göstərən bölməsi həm birinci instansiya məhkəməsi kimi onun səlahiyyətlərinə aid edilmiş cinayət və mülki işlərə xalq iclasçılarının iştirakı ilə baxıb hökm və qətnamələr çıxarır, həm də ikinci instansiya məhkəməsi kimi muxtar respublikanın ərazisində yerləşən birinci instansiya məhkəmələrinin baxdıqları cinayət və mülki işlərdən verilmiş şikayətlərə və protestlərə üç nəfər daimi məh-

kəmə üzvünün iştirakı ilə baxıb qərar və qəradadlar çıxarırdı. Bununla belə Ali Məhkəmənin Naxçıvan MSSR-də olan bölməsi əhatə etdiyi ərazidə fəaliyyət göstərən rayon xalq məhkəmələri üçün həm də yuxarı məhkəmə orqanı sayılırdı.
Azərbaycan SSR MİK-in və XKS-in 23 avqust 1934-cü il tarixli qərarı ilə 06 iyul 1927-ci il tarixli "Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında" Əsasnaməyə edilən dəyişikliyə görə Azərbaycan SSR Ali Məhkəməsinin Naxçıvan MSSR-də fəaliyyət göstərən bölməsi ləğv edilərək onun əvəzinə Naxçıvan MSSR Baş Məhkəməsi, eləcə də Naxçıvan MSSR-də xalq məhkəmələri yaradıldı.
Naxçıvan MSSR Baş Məhkəməsinin baxdığı işlər barədə çıxardığı hökmlərdən və qərarlardan kassasiya şikayəti (protesti) yalnız Azərbaycan SSR Ali Məhkəməsinə verilə bilərdi.
1936-cı ildə SSRİ-nin II Konstitusiyasının qəbulu ilə əlaqədar olaraq 1937-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edildi. Konstitusiyanın 110-cu maddəsinə görə Naxçıvan MSSR Baş Məhkəməsi Naxçıvan MSSR Ali Məhkəməsi adı altında fəaliyyət göstərməyə başladı. Naxçıvan MSSR Ali Məhkəməsi Naxçıvan MSSR Ali Soveti tərəfindən 5 il müddətinə seçilirdi. Muxtar Respublika Ali Məhkəməsi Ali Sovetə, onun sessiyaları arasındakı dövrdə isə Rəyasət Heyətinə tabe idi. Naxçıvan MSSR- də məhkəmə işləri azərbaycan dilində aparılırdı.
Azərbaycan SSR Ali Sovetinin 1960-cı il 08 dekabr tarixli 5-ci sessiyasında "Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında" Azərbaycan SSR Qanunu qəbul edildi. Qanuna müvafiq olaraq Naxçıvan MSSR Ali Məhkəməsi onun səlahiyyətlərinə aid edilmiş mülki işlərə və cinayət işlərinə birinci instansiya məhkəməsi qismində baxır, muxtar respublikanın rayon (şəhər) xalq məhkəmələrinin məhkəmə fəaliyyətinə nəzarət edir, xalq məhkəmələrini təftiş edir və onların bütün fəaliyyəti üzərində nəzarəti həyata keçirirdi.
Naxçıvan MSSR Ali Məhkəməsinin hakimləri Naxçıvan MSSR Ali Soveti tərəfindən 5 il müddətinə seçilirdi. Naxçıvan MSSR Ali Məhkəməsinin hakimlərinin say tərkibini isə Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti müəyyən edirdi.
1977-ci ildə SSRİ-də Yeni Konstitusiyanın qəbulu ilə əlaqədar hakimiyyətin ən mühüm strukturlarından olan məhkəmə orqanlarının inkişaf edib möhkəmlənməsinə zəmin yarandı və 16 iyun 1981-ci ildə "Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında" yeni qanun qəbul edildi. Qanuna görə Azərbaycan SSR məhkəmə sisteminə daxil olan Naxçıvan MSSR Ali Məhkəməsinə 1960-cı il Qanununda göstərilən səlahiyyətlərdən əlavə işlərə nəzarət qaydasında və yeni açılmış hallar üzrə baxmaq hüququ verildi. Bundan əlavə həmin Qanuna görə Naxçıvan MSSR Ali Məhkəməsi Rəyasət Heyətinin qanunvericilik təşəbbüsü qaydasında Naxçıvan MSSR Ali Sovetinə və ya onun Rəyasət Heyətinə, Naxçıvan MSSR qanunlarının şərh edilməsi ilə bağlı təqdimatlar vermək hüququ var idi. Yeni Qanunla Naxçıvan MSSR Ali Məhkəməsinin sədri bu qanunla müəyyən edilmiş hallarda mülki işlər barəsində məhkəmə qərarlarının icrasını dayandıra bilər, qanun və hüquq pozuntularının yaranma səbəbləri və onu doğuran şəraitin aradan qaldırılması yolları barədə dövlət orqanlarına, ictimai təşkilatlara və vəzifəli şəxslərə təqdimatlar vermək səlahiyyətinə malik idi.
1991-ci ildə SSRİ-nin süqutu, Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi məhkəmə quruluşunun, ədalət mühakiməsi qaydalarının daha geniş və köklü şəkildə dəyişdirilməsini tələb edən islahatların aparılmasını zəruri edirdi. Ancaq 1993-cü ildə ümumilli lider Heydər Əliyevin xalqın təkidli istəyi ilə hakimiyyətə qayıdışından sonra bu islahatların həyata keçirilməsi mümkün oldu. Bu islahatların bünövrəsində Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dayanır.
Konstitusiyanın müddəalarına müvafiq olaraq Azərbaycan Respublikasında ədalət mühakiməsinin qabaqcıl təcrübə əsasında həyata keçirilməsini təmin etmək və müstəqil məhkəmə hakimiyyətini daha da möhkəmlən-dirmək məqsədi ilə 10 iyun 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.
"Məhkəmələr və hakimlər haqqında" Qanunun qəbul edilməsi ilə Azərbaycan Respublikasında üçpilləli məhkəmə sistemi bərqərar oldu. Qanuna görə bu üçpilləli sistem daxilində Naxçıvan MR-in rayon (şəhər) məhkəmələri və ixtisaslaşdırılmış məhkəmələri birinci instansiya, Naxçıvan MR Ali Məhkəməsi isə həm birinci instansiya, həm də ikinci-apellyasiya instansiyası məhkəməsi kimi müəyyən edildi. Bu təyinata uyğun olaraq Naxçıvan MR Ali Məhkəməsinin tərkibində qanunla onun səlahiyyətlərinə aid edilmiş ağır cinayət işlərinə baxan ağır cinayətlərə dair işlər üzrə birinci instansiya kollegiyası, muxtar respublikanın ərazisində fəaliyyət göstərən rayon (şəhər) məhkəmələrinin cinayət işləri və inzibati xətalara dair materiallar, eləcə də mülki işlər üzrə qanuni qüvvəyə minməmiş qərarlarından verilən apellyasiya şikayətlərinə və protestlərinə apellyasiya məhkəməsi qismində baxan cinayət işləri və inzibati xətalara dair işlər üzrə, eləcə də mülki işlər üzrə apellyasiya kollegiyaları yaradıldı.
29 dekabr 1998-ci il tarixdə qüvvəyə minmiş Nax-

çıvan Muxtar Respublikası Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanı olmaqla yanaşı, Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini təmin edən orqan kimi müəyyən edildi.

Azərbaycan Respublikasının 30 dekabr 2005-ci il tarixli Qanunu ilə "Məhkəmələr və hakimlər haqqında" Qanuna, Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının 2007-ci il 16 iyun tarixli Qanunu ilə müvafiq prosessual qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi və Azərbaycan Respublikası Prezidenti tərəfindən məhkəmə hakimiyyətinin müasirləşdirilməsi məsələlərinə həsr olunmuş 19 yanvar 2006-cı il tarixli Fərmanın verilməsi nəticəsində məhkəmə islahatları növbəti mərhələyə yüksəldi və bu mərhələdə Naxçıvan Muxtar Respublikasının məhkəmələri, xüsusilə də Naxçıvan MR Ali Məhkəməsində köklü, struktur dəyişiklikləri aparıldı.

Belə ki, sözü gedən qanunvericilik aktları ilə 2000-ci il iyun ayının 01-dən Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsi adı altında fəaliyyət göstərən məhkəmə 2007-ci il iyun ayının 16-dan Azərbaycan Respublikasının Ağır Cinayətlərə Dair İşlər üzrə Hərbi Məhkəməsinin yurisdiksiyasını Naxçıvan Muxtar Respublikası ərazisində həyata keçirməyə başladı. Eləcə də Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin tərkibində olan Ağır Cinayətlərə dair İşlər üzrə birinci instansiya kollegiyası ləğv olunaraq Naxçıvan Muxtar Respublikasında Ağır Cinayətlərə dair İşlər üzrə Məhkəmə yaradıldı.

Eyni zamanda Ali Məhkəmədə əvvəldən mövcud olan Mülki işlər üzrə, eləcə də Cinayət işləri və inzibati xətalara dair işlər üzrə kollegiyalarla yanaşı, daha iki kollegiya- İqtisadi mübahisələrə dair işlər üzrə və Hərbi məhkəmələrin işləri üzrə kollegiyalar yaradıldı. Bu yeniliklər Naxçıvan MR Ali Məhkəməsi tərəfindən işlərə birinci instansiya qaydasında baxılmasını istisna etdi və Ali Məhkəmənin sırf apellyasiya instansiyası məhkəməsi kimi fəaliyyət göstərməsini tənzimlədi.

Məhkəmə hüquq islahatlarının davamı kimi "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə 22 iyun 2010-cu il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Ali Məhkəmələrinin tərkibində fəaliyyət göstərən kollegiyaların adları mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiya ifadələri ilə əvəz edilmiş, Ağır Cinayətlərə Dair İşlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsinin adı Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi olaraq dəyişdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul tarixli "Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər və "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarına dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli Qanununun tətbiq edilməsi haqqında" Fərmanının 15-ci bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının İqtisad Məhkəməsi əsasında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi yaradılmışdır.

İnzibati məhkəmələrin və kommersiya məhkəmələrinin təşkili və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 iyul 2019-cu il tarixli Sərəncamı ilə yeni regional kommersiya və inzibati məhkəmələr təşkil edilmiş, həmin Sərəncama əsasən Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasının İnzibati və Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəmələri yaradılmışdır.

Göründüyü kimi hər bir ölkədə aparılan hüquqi islahatların müsbət nəticələr verməsi ilk növbədə məhkəmə və hüquq sisteminin fəaliyyətinin müasirləşdirilməsindən, dövrün tələbləri səviyyəsində qurulmasından asılıdır. Naxçıvan Muxtar Respublikasında son dövrlərdə bu sahəyə diqqət və qayğının artırılması, ardıcıl islahatların aparılması ümumilikdə hüquq sisteminin səmərəli fəaliyyətinin təmin olunmasına xidmət edir. Bir tərəfdən qanunvericiliyə gətirilən yeniliklər, digər tərəfdən isə məhkəmələrin maddi təminat məsələlərinə göstərilən diqqət, o cümlədən hakimlərin, məhkəmə işçilərinin iş şəraitinin müasir tələblər səviyyəsinə çatdırılması Naxçıvan Muxtar Respublikası məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrinin keyfiyyətlə yerinə yetirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiə olunmasına şərait yaradır. Şübhə yoxdur ki, görülən bu işlər muxtariyyət ilində də Naxçıvan Muxtar Respublikasının bütün məhkəmə orqanları sisteminin sürətlə inkişaf etdirilməsinə böyük təkan verəcək və nəticədə muxtar respublikada insan hüquq və azadlıqlarının daha möhkəm təminatı üçün münbit zəmin yaranacaqdır.



# THE JUDICIAL-LEGAL SYSTEM IN THE YEARS OF AUTONOMY

During the 100 year period of the autonomy of Nakhchivan, the judicial legal system of the autonomous republic underwent a long historical development. This history is closely intertwined with that of the Nakhchivan Autonomous Republic and as a whole with Azerbaijan, it has reflecting himself the various eras experienced of the country and also the autonomous republic.

Although the process of establishing judicial bodies began during the Azerbaijan Democratic Republic, the short lifespan of the democratic republic prevented the completion of this process. However, after the establishment of Soviet power in Azerbaijan, new judicial bodies that met the demands of communist ideology began to be organized.

At the second session of the Central Executive Committee of the Azerbaijan SSR held on December 9, 1922, the first Charter on the Judicial System of the Azerbaijan SSR was adopted and came into force. Starting from March 1, 1923, all revolutionary tribunals, the Council of People's Judges, people's courts for significant criminal cases, and the Supreme Court Supervision Department under the Republic People's Commissariat of Justice were abolished. In their place, the Supreme Court of the Azerbaijan SSR, and the people's courts of the Baku and Ganja districts were established. It should be noted that the Supreme Court of the Azerbaijan SSR was organized as the highest judicial body exercising unified control over judicial activities throughout the territory of the Azerbaijan SSR. In the Nakhchivan ASSR, province courts were established on October 1, 1923.

As part of the continuation of judicial reforms and to establish a judicial system with supreme oversight functions in Nakhchivan, which had already gained autonomous republic status, a branch of the Supreme Court of the Azerbaijan SSR was created in the Nakhchivan Autonomous Republic by a joint decision of the Central Executive Committee of Azerbaijan and the Central Executive Committee of the Nakhchivan ASSR on October 11, 1924. According to the Charter on the Court System of the Azerbaijan SSR, this branch was authorized to perform the functions of the Supreme Court of the Azerbaijan SSR concerning cases reviewed in the gezas.

After the adoption of the law "On the basises of the Judicial System of the Union Republics of USSR " on October 29, 1924, the Azerbaijan SSR Central Executive Committee transformed the High Court of the Azerbaijan SSR into the Supreme Court of the Azerbaijan SSR on January 3, 1925.

Accordingly, the branch operating in the Nakhchivan ASSR was renamed as the branch of the Supreme Court of the Azerbaijan SSR in the Nakhchivan ASSR.

The branch of the Supreme Court operating in the Nakhchivan ASSR functioned both as a court of first instance, hearing criminal and civil cases within its authorities with the participation of peo-

ple's assessors, and as a court of second instance, reviewing complaints and protests against decisions made by the first instance courts located within the autonomous republic's territory with the participation of three permanent members of the court. Additionally, this branch was the supreme judicial authority for the region people's courts operating within its area of jurisdiction.

By the decision of the Central Executive Committee and the Council of People's Commissars of the Azerbaijan SSR on August 23, 1934, a change was made to the Charter on the Court System of the Azerbaijan SSR dated July 6, 1927. According to this change, the branch of the Supreme Court of the Azerbaijan SSR operating in the Nakhchivan ASSR was abolished and replaced by the Head Court of the Nakhchivan ASSR, as well as the establishment of people's courts in the Nakhchivan ASSR. Cassation appeals (protests) against the judgments and decisions of the Head Court of the Nakhchivan ASSR could only be submitted to the Supreme Court of the Azerbaijan SSR.

With the adoption of the second Constitution of the USSR in 1936, a new Constitution of the Azerbaijan SSR was adopted in 1937. According to Article 110 of the Constitution, the Head Court of the Nakhchivan ASSR began operating under the name of the Supreme Court of the Nakhchivan ASSR. The Supreme Court of the Nakhchivan ASSR was elected for a term of five years by the Supreme Soviet of the Nakhchivan ASSR. The Supreme Court of the Autonomous Republic was accountable to the Supreme Soviet and, between sessions, to the Presidium. Judicial proceedings in the Nakhchivan ASSR were conducted in the Azerbaijani language.

On December 8, 1960, in the fifth session of the Supreme Soviet of the Azerbaijan SSR, the Law "On the Judicial Structure of the Azerbaijan SSR" was adopted. According to this Law, the Supreme Court of the Nakhchivan ASSR handled civil and criminal cases within its jurisdiction as a first-instance court, supervised the judicial activities of the region (city) people's courts of the autonomous republic, inspected these courts, and oversaw their entire activities. The judges of the Supreme Court of the Nakhchivan ASSR were elected by the Supreme Soviet of the Nakhchivan ASSR for a term of five years, with the number of judges determined by the Presidium of the Supreme Soviet of the Nakhchivan ASSR.

With the adoption of the new Constitution of the USSR in 1977, the foundation was laid for the development and strengthening of judicial bodies, one of the most important structures of power. Consequently, on June 16, 1981, a new law "on the Judicial Structure of the Azerbaijan SSR" was adopted. According to this Law, in addition to the authorities specified in the 1960 Law, the Supreme Court of the Nakhchivan ASSR, which was part of the Azerbaijan SSR's judicial system, was given the authority to review cases by way of supervision and newly discovered circumstances. Furthermore, according to the same law, the Presidium of the Supreme Court of the Nakhchivan ASSR had the right to make submissions to the Supreme Soviet of the Nakhchivan ASSR or its Presidium regarding the interpretation of laws of the Nakhchivan ASSR. Under the new law, the Chairman of the Supreme Court of the Nakhchivan ASSR had the authority, in cases specified by this law, to suspend the execution of judicial decisions on civil matters and to make submissions to state bodies, public organizations, and officials regarding the causes and conditions that led to violations of the law and ways to eliminate them.

In 1991, with the collapse of the USSR and the attainment of state independence by Azerbaijan, there was a pressing need for reforms that required comprehensive and fundamental changes in the judicial system and the administration of justice. However, these reforms became possible only after the return to power of the national leader Heydar Aliyev in 1993, following the insistent demand of the people. The foundation of these reforms is the Constitution of the independent Republic of Azerbaijan, drafted under the leadership of the great leader Heydar Aliyev and adopted through a nationwide referendum on November 12, 1995. According to the provisions of the Constitution, in order to ensure the administration of justice based on advanced practices in the Republic of Azerbaijan and to further strengthen the independent judiciary, the Law "On Courts and Judges of the Republic of Azerbaijan" was adopted on June 10, 1997.

With the adoption of the Law "On Courts and Judges", a three-tier judicial system was established in the Republic of Azerbaijan. According to the law, within this three-tier system, the region (city) courts and specialized courts of the Nakhchivan AR were defined as courts of first instance, while the Supreme Court of the Nakhchivan AR was designated as both a first-instance and second-appellate instance court. In accordance with this designation, the Supreme Court of the Nakhchivan AR included the first-instance collegium for serious criminal cases, which reviewed cases assigned to its jurisdiction by law, and appellate collegiums for criminal cases, administrative offenses, and civil cases. These appellate collegiums

reviewed appeals and protests against decisions of the district (city) courts within the autonomous republic's territory that had not yet come into legal force as well as on civil cases, were established within the Supreme Court of the Nakhchivan Autonomous Republic.

According to the Constitution of the Nakhchivan Autonomous Republic, which came into force on December 29, 1998, the Supreme Court of the Nakhchivan Autonomous Republic was established as the highest judicial authority for civil, criminal, and other cases falling under the jurisdiction of general and specialized courts. Additionally, it was designated as the organ ensuring constitutional oversight within the Nakhchivan Autonomous Republic.

With the Law of the Republic of Azerbaijan dated December 30, 2005, and subsequent amendments and additions to the "Law on Courts and Judges" and other legislative acts of the Republic of Azerbaijan dated June 16, 2007, judicial reforms reached a new phase. These reforms were further propelled by the Decree of the President of the Republic of Azerbaijan dated January 19, 2006, focusing on the modernization of the judiciary. During this phase, substantial structural changes were implemented in the courts of the Nakhchivan Autonomous Republic, particularly within the Supreme Court of the Nakhchivan AR.

As per these legislative acts, the court, which had been operating under the name of the Nakhchivan Autonomous Republic Military Court since June 1, 2000, began exercising the jurisdiction of the Military Court on Serious Crimes of the Republic of Azerbaijan within the territory of the Nakhchivan Autonomous Republic from June 16, 2007. The same time, the first-instance collegium for serious criminal cases within the Supreme Court of the Nakhchivan AR was abolished, and the Court on Serious Crimes of the Nakhchivan Autonomous Republic was established. Moreover, alongside the existing collegiums for civil cases and for criminal and administrative offenses, two new collegiums were created within the Supreme Court of the Nakhchivan AR-one for economic disputes and one for military court cases. These changes excluded the handling of cases at the first instance by the Supreme Court and regulated its functioning solely as an appellate instance court.

As part of the continuing judicial reforms, changes and additions were made to the laws of the Republic of Azerbaijan on "Courts and Judges" and "Judicial-Legal Council" by the Law of the Republic of Azerbaijan dated June 22, 2010. This law replaced the names of the collegiums functioning within the Supreme Courts of the Republic of Azerbaijan and the Nakhchivan Autonomous Republic with the terms civil, administrative-economic, criminal, and military collegiums. The name of the court dealing with serious crimes in the Nakhchivan Autonomous Republic was changed to the Court on Serious Crimes of the Nakhchivan Autonomous Republic. According to Clause 15 of the Presidential Decree of the Republic of Azerbaijan dated July 15, 2010, titled "On some measures related to the improvement of the judicial system of the Republic of Azerbaijan and the implementation of the Law on Amendments and Additions to the Laws on 'Courts and Judges' and 'Judicial-Legal Council' of the Republic of Azerbaijan dated June 22, 2010," the Economic Court of the Nakhchivan Autonomous Republic was transformed into the Administrative-Economic Court of the Nakhchivan Autonomous Republic.

According to the Decree of the President of the Republic of Azerbaijan dated July 19, 2019, on the organization of administrative courts and commercial courts and the application of the Law of the Republic of Azerbaijan No. 1632-VQD dated July 9, 2019 "On Amendments to the Law of the Republic of Azerbaijan "On Courts and Judges", a new regional commercial and administrative courts were organized, and according to that Order, the Administrative Court of the Nakhchivan Autonomous Republic and the Commercial Court of the Nakhchivan Autonomous Republic were established in the city of Nakhchivan.

As it seems, the positive results of legal reforms in any country primarily depend on the modernization of the judicial and legal system and its alignment with contemporary requirements. In recent times, increased attention and care towards this area in the Nakhchivan Autonomous Republic, along with the implementation of consistent reforms, have contributed to the overall effectiveness of the legal system. Legislative innovations and the attention to the material provisions of the courts, including the improvement of the working conditions of judges and court staff to meet modern requirements, have created favorable conditions for the courts of the Nakhchivan Autonomous Republic to effectively perform their duties in administering justice and also efficiently protecting human rights and freedoms.

Undoubtedly, all these efforts will also significantly drive the rapid development of the entire judicial system of the Nakhchivan Autonomous Republic during the autonomy year, providing a fertile ground for the enhanced protection of human rights and freedoms in the autonomous republic.